# 22 Aprel–Beynəlxalq Yer Kürəsi Günüdür

Aprelin 22-də Beynəlxalq Yer Kürəsi Günü qeyd edilir. Bu bayram 22 aprel 2009-cu ildə BMT-in Baş Assambleyasının 63-cü sessiyasında təsis edilmiş və 2010-cu ildən başlayaraq hər il aprelin 22-si keçirilir. Bu beynəlxalq günün qətnamədə yer alması Yerin və onun ekosisteminin bizim evimiz olmasının, insanlığa həyat verməsinin təzahürüdür. Qətnamədə həmçinin bildirilir ki, “Ana-Yer” termini bir çox ölkələrdə qəbul olmuşdur və insan, yer planeti və onun ekosistemləri arasındakı əlaqəni əks etdirir. BMT-in bütün üzv ölkələrinə, beynəlxalq və qeyri-hökumət təşkilatlarına “Beynəlxalq Ana-Yer Kürəsi Günü”-nü qeyd etməyi tövsiyə edən Baş Assambleya, bu bayramın artıq hər il bir çox ölkələrdə qeyd olunduğunu diqqətə çatdırır. Şimal yarımkürəsində Yer Kürəsi günü yazda, Cənub yarımkürəsində isə payızda qeyd olunur. Bu ümumdünya aksiyasının əsas məqsədi cəmiyyətin və hər bir insanın Yerin problemlərinə, onun ətraf mühitinin problemlərinə diqqətini cəlb etməkdir.

Hesablamalara görə Yer Kürəsinin 4.5 milyard il yaşı vardır. Bu gün hər kəs öz həyətinin, küçəsinin yaşıllaşdırılmasında, abadlaşdırılmasında iştirak edə bilər. 22 Aprel Ana-Yer Kürəsi Günü, yaz bərabərliyi günündə qeyd olunan Yer Günü kimi, planetin bütün yaşayış məskənlərində yaşayan hər bir sakinə bizim böyük ortaq evimizə minnətdarlıq etmək imkanı verir. Hər il dünya ölkələrinin alimləri bu gündə dəyirmi masa arxasında qlobal ekoloji problemləri müzakirə etmək üçün toplaşırlar. Müxtəlif ölkələrdə fərqli- fərqli aksiya və tədbirlər keçirilir. Bunlar konfranslar, sərgilər, şəhərin ən işlək küçələrində avtomobil hərəkətinin dayandırılması, ərazilərin təmizlənməsi və ağacların əkilməsidir.

Gəlin biz də Dünyamızı, Yer Kürəmizi, öz yurdumuzu-yuvamızı qorumaqda əlimizdən gələni əsirgəməyək!

*“Qəbələ”.*

# Dünyada ağac növləri

***Bitkilərin Mühafizəsi üzrə Beynəlxalq Nəbatat Bağları Şurası (Böyük Britaniya) yer üzündə ağac növlərinin təxmini sayını müəyyən edib: 60 min. Müvafiq tədqiqatın nəticəsi “Journal of Sustainable Forestry” jurnalında dərc olunub.***

Ən çox ağac növü (8715 vahid) Braziliyada, ən azı isə Şimali Amerikanın Arktika regionunda (1,4 min vahiddən az) bitir. Onların yarısından çoxu (58 faizi) dünyanın yalnız bir ölkəsində bitir və başqa ölkələrdə təsadüf edilmir. Alimlərin fikrincə, belə vəziyyət bitkilərin mövcudluğuna, məsələn, hava hadisələri və insan fəaliyyəti səbəbindən təhlükə yaradır.





Təxminən 300 ağac növünün kökü kəsilmək üzrədir, çünki nəsli kəsilməkdə olan hər bir ağacın populyasiyasının sayı 50 bitkidən çox deyil. Məsələn, Tanzaniyada cəmi 6 Karomia gigas adlı ağac bitir. Alimlər bu ağacların toxumlarını yığmağı planlaşdırırlar.

Bitkilərin Mühafizəsi üzrə Beynəlxalq Nəbatat Bağları Şurasının mütəxəssisləri ağacların növlərinin sayını müəyyən etmək üçün təşkilatın 500 üzvündən alınmış məlumatlardan istifadə edib. Ekspertlər hesab edirlər ki, siyahının tərtib edilməsi nadir və nəsli kəsilməkdə olan növləri qorumağa kömək edəcək.

Azərbaycan nadir ağac və kol növlərinin vətəni sayılır. Qara çöhrə üçüncü dövrün qədim bitkisi kimi ölkəmizin meşələrinin nadir incisidir. Bu ağac Böyük Qafqazın cənubunda (Qəbələ rayonu), cənub-şərqində (Pirqulu, Şamaxı rayonu) daha çox yayılıb. Gecböyüyən, lakin uzunömürlü qaraçöhrə heç vaxt geniş əraziləri tutmayıb. Eldar şamının təbii vətəni Ceyrançöl dağətəyi zonasının Eldar düzüdür. Talış dağlarında üçüncü dövrün qədim və nadir ağacları - dəmirağac, Lənkəran akasiyası, şabalıdyarpaq palıd, Qafqaz xurması, şümşad, Hirkan ənciri və ağcaqayın, başqa ağaclar bitir.

# Kənd təsərrüfatı məhsulları istehsalına diqqət daha da artır

***Ölkəmizdə qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın prioritet sahəsinə çevrilmişdir. Bu təbiidir. Çünki, dünya bazarında neftin qiyməti 3-4 il bundan öncəkinə nisbətən 2-3 dəfə aşağı düşmüşdür. Ekspertlər enerji daşıyıcılarının qiymətinin bundan sonra uzun illər əvvəlki səviyyəyə catmayacağını proqnozlaşdırırlar.***

Alternativ enerji mənbələrinin (günəş, külək və s) kəşfi bu proqnozların əsassız olmadığını sübut edir. Məhz buna görə də ölkəmizdə qeyri-neft sektorunun önəmli sahəsi olan kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, bu ilin əvvəlindən ötən üç ay ərzində ölkədə ümumilikdə kənd təsərrüfatı məhsulları istehsalı 3,2 faiz artmışdır. Azərbaycandan ixrac olunan məhsulların dəyəri 2016-cı illə müqayisədə 49,5 faiz artmışdır ki, burada qeyri neft məhsullarının siyahısında kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi daha yüksəkdir. Kənd təsərrüfatı məhsulları istehsalı ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı daha çox insanın işlə təmin olunması üçün şərait yaradır. Beləliklə kənd təsərrüfatının inkişafı təkcə ərzaq təminatı, ölkənin ixrac potensialının artırılması məsələsi deyil, həm də çox böyük sosial məsələdir.

Bütün bunları nəzərə alan ölkə Prezidenti cənab İlham Əliyev 11 aprel 2011-ci ildə «Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» Sərəncam imzalayıb.

Dövlət başçısının bu sərəncamı kənd təsərrufatı məhsulları istehsalının artmasını təmin edən əsas məsələnin—maliyyələşmənin həllinə yönəlmişdir.

*«Qəbələ».*

# Yaz gəldi: kəndli tarlaya çıxır

***Bu il qış fəsli istər yağıntı, istərsə də havanın temperaturu baxımından təbii normalar daxilində keçib. Kənd təsərrüfatında necə deyərlər saç ağartmış, təcrübəli mütəxəssislər deyir ki, qış normal keçdikdə yaz da yaxşı gəlir. Bol məhsulun əsası da elə yazda qoyulur. Yazın gəlişi ilə yaşayış məntəqələrində hansı işlərin görülməsi barədə bir neçə kənd inzibati ərazi nümayəndəsilə əlaqə saxladıq. Aldığımız cavablar deməyə əsas verir ki, kəndli doğrudan da torpağa qayıdır. İndi daha çox adam başa düşür ki, yaxşı gün-güzəran çayxanalarda oturmaq, yol kənarlarında durmaqda yox, tarlalarda, bağda, bostandadır.***

**Quşlar kənd inzibati ərazi nümayəndəsi Əmir Aslanov:**

—Kənd camaatı bu yaz daha mütəşəkkil şəkildə tarlalara, bağlara çıxıb. Kənd təsərrüfatında məhsuldarlıq sudan asılı olduğuna görə camaatımız birinci növbədə kəndimizə gələn suvarma suyu arxının təxminən 3 kilometrlik məsafəsini təmizləyib, qaydaya salıb. Əkin sahələrimizdə gözəl bitiş alınıb. İndi əkinçilər zəif olan sahələrə kübrələrin verilməsi, ziyanvericilərə qarşı mübarizə aparılması ilə məşğuldur. Quşlar kəndindən xeyli adam yaxınlıqdakı «ASPİ Aqro» MMC-yə məxsus üzüm sahəsində çalışır. Hazırda üzümçülükdə tənəklərin məftillərə bağlanması, quru budaqların kəsilib atılması digər becərmə işləri gedir. Kəndin hər tərəfi əkin və bağ sahəsi olduğuna görə mal-qaradan qorunmasına ciddi ehtiyac var. Buna görə kəndimizdə mal-qaranın nəzarətsiz gəzməsinin qarşısının alınması üçün iki naxır təşkil olunub.





**Yenikənd kənd inzibati ərazi nümayəndəsi Nazim Məmmədov:**

—Kənd camaatının xeyli hissəsi yarımköçəri heyvandarlıqla məşğuldur. Hazrda heyvandarlarımız qışlaqdadır. Bu il qışlaqlarda yaz yaxşı gəlib. Bol yaşıl yem var. Yaxın vaxtlarda qoyunçuluqda yaz yun qırxımı kampaniyası başlayacaq. Bunun üçün bütün hazırlıq işləri görülüb.

Yenikənd kəndində yazın gəlişi ilə əlaqədar təmizlik abadlıq işləri genişlənib. Payızlıq əkinlərə yemləmə gübrələrinin verilməsi, ziyanvericilərə qarşı dərmanlama işləri sürətlə gedir. Keçən il payızda əkilmiş fındıq və tut bağlarında da, həmçinin köhnə bağlarda da becərmə işləri aparılır.

**Seyidqışlaq kənd inzibati ərazi nümayəndəsi Vaqif Mehdiyev:**

—Kəndimizin əkin sahələrini və meyvə bağlarını su ilə təmin edən arxlar qumdan, lildən, kol-kosdan təmizlənib. Keçən ilin payızında xeyli ərazidə tut, fındıq tingləri əkmişik. İndi həmin ərazilərdə becərmə işləri gedir. Yazın gəlişi ilə əlaqədar abadlıq, yolların qaydaya salınması işləri sürətlənmişdir. Vəndam bələdiyyəsinin vəsaiti hesabına Vəndam qəsəbəsini kəndimizlə birləşdirən yola qum-çınqıl tökülüb, hamarlanıb.

**Qələmə aldı:**
**✍ Qüdrət SƏMƏDOV,**
**Səhrab UMUYEV.**
**«Qəbələ».**